**AZƏRBAYCAN OXUSUN**

Kim bu xalqın önündə getməyi bacarırsa,
Tilsimləri sındırır, tufanları yarırsa,
Ən qorxulu nöqtəyə kişi kimi gedirsə,
Ən ağrılı yerlərə igid kimi varırsa,
Kişi odur, mərd odur!
Onun tərəfində dur!!!

Millət kimin eşqinə dəniztək qabarırsa,
Xəyanətin başında tufanlar qoparırsa,
Kim xalqı bayraq kimi üfüqlərə qaldırıb
Kim xalqı qoşun kimi ardınca aparırsa,
Qaya odur, sərt odur!
Onun tərəfində dur!!!

Kim topları susdurur ağlıyla, əsəriylə,
Kim qanı dayandırır sözünün kəsəriylə,
Kim xalqa dərədən yox, zirvələrdən baxırsa,
Yağıların başında şimşək kimi çaxırsa,
Dünyanın hər yerinə
Azərbaycan xalqının qanadını açırsa,
Onu görən düşmənin rəngi, ruhu qaçırsa,
Haqlı odur, haqq odur!
Haqqın tərəfində dur!!!

Ey mənim müdrik xalqım,
ey qəhrəman millətim!
Ey yeraltı xəzinəm, ey yerüstü sərvətim!
Daş daşa söykənəndə çevrilib divar olur,
Dağ dağa söykənəndə zaman-zaman var olur!
El elə güvənəndə yurdu basılmaz olur,
Əl ələ güvənəndə güllər açır, yaz olur!
Mənim bu dediklərim tərsinə çevriləndə,
Xoşbəxtliyin sarayı uçanda, devriləndə
Vətən də yalqız olur, millət də yalqız olur!
Vətən də yazıq olur, millət də yazıq olur!
Şər özünü yormasın, bu qüdrət tutmaz ləkə,
Nə bu millət kölədi, nə torpaq müstəmləkə!
Bayraq azadlığım var, başım üstə yellənir!
Torpaq azadlığım var,
Dağları zirvələnər, düzləri sünbüllənər!
Torpaq azad olanda çiçəklənər, güllənər!
Dəniz azad olanda hey qabarar, çəkilər,
Çeşmə azad olanda aşar, daşar, sellənər!
İnsan azad olanda duyğuları tellənər!



Zəlimxan YAQUB

Tellən, bayrağım mənim!
Güllən, torpağım mənim!
Oxu, dodağım mənim!
Alış, ocağım mənim!
İstiqlal havasını, xoşbəxtlik nəğməsini
Ürəkdə yanan işıq, damarda qan oxusun!
Ölməz Əhməd Cavadın "Azərbaycan" şeirini,
Ölməz Səməd Vurğunun "Azərbaycan" şeirini,
Azərbaycan oxusun!
Azərbaycan oxusun!!!